**AZƏRBAYCAN RESPUBLİKASI**
**DAXİLİ İŞLƏR NAZİRLİYİ**

**POLİS AKADEMİYASI**

**"DAXİLİ İŞLƏR ORQANLARININ İNZİBATİ FƏALİYYƏTİ" KAFEDRASI**

**"İnzibati hüquq" fənni üzrə**

# M Ü H A Z İ R Ə

(əyani təhsilalanlar üçün)

**Mövzu № 1. "İdarəetmə, dövlət idarəetməsi və icra hakimiyyəti"**

**Tərtib etdi:** "DİO-nun inzibati fəaliyyəti" kafedrasının rəisi,
polis polkovniki, h.ü.f.d., dosent Rafiq Nəcəfquliyev

Mühazirə kafedranın iclasında müzakirə olunmuş və təsdiq edilmişdir.

Protokol № _________________ 2016-cı il

Dəyişiklik və əlavə edilib: _______________ 2018-ci il.

Əlavə edilib: _______________ 2019-cu il.

Əlavə edilib: _______________ 2020-ci il.

**Bakı – 2016**

## Mövzu № 1. İdarəetmə, dövlət idarəetməsi və icra hakimiyyəti

**Plan:**

Giriş
1. İdarəetmənin anlayışı, elementləri və funksiyaları.
2. Dövlət idarəetməsinin anlayışı, subyektləri, və prinsipləri.
3. İcra hakimiyyətinin anlayışı və məqsədi.

Nəticə

**İstifadə və tövsiyə edilən mənbələr:**


1. "Azərbaycan Respublikasının Konstitusiyası". Bakı, Hüquq Yayın Evi-2016.
2. "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2016.
3. Dərslik. "İnzibati hüquq" Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. Bakı 2008.
4. Dərslik. "Административное право". Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. Bakı, 2008.
5. Dərs vəsaiti. "İnzibati hüquq" ümumi hissə. Vaqif Abışov, Aleksandr İsmayılov, Rafiq Nəcəfquliyev. Bakı, MBM mətbəəsi, 2014.
6. Dərslik. "İnzibati hüquq". Rafiq Nəcəfquliyev. Bakı, 2018.
7. İdarə Hukuku Dersleri. Kemal Gözler. Üçüncü Baskı. Bursa 2005.
8. Берлач А.И. Административное право Украины: Учеб. Пос., Университет "Украина", 2005., 472 с.
9. Dərslik. «Административное право» D.N. Baxrax, V.B. Rossinski, Y.N. Starilov. Moskva 2005.
10. Dərslik. «Административное право» A.B. Aqapov, Moskva 2004.
11. Dərslik. «Курс административного права». B.N Qabriчidze, A.Q. Чernyavski Moskva 2003.
12. Dərs vəsaiti. «Административное право Российской Федерации» S.V, Tixomirov Moskva 2003.
13. Dərs vəsaiti. «Курс обшего административного права». Y.N. Starilov Moskva 2002.
14. Dərslik. «Административное право России». D.N.Baxrax. M., 2000.
15. Учебное пособие. Административное право. Мазурин С.Ф., Прокофьев. СПб, 2019. – 312 с.
16. Актуальные проблемы административного права и административного процесса: Сборник научных статей / Отв. ред.М. А. Штатина. — М.: РГУП, 2017. — 280 с.
17. http://www.e-qanun.az
18. http://www.preslib.az.
19. http://www.yurist-online.com.

## Giriş

Azərbaycan xalqı öz müstəqilliyini qazandıqdan sonra özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək respublikamızda dövlət quruculuğuna başladı. 12 noyabr 1995 tarixdə referendum yolu ilə qəbul edilmiş ilk Milli Konstitusiyamızla Respublikamızda aparılan dövlət quruculuğunun məqsəd və istiqamətləri dəqiqliyi ilə müəyyən edilmişdir. Konstitusiyamızın 7-ci maddəsinin 3-cü hissəsinə əsasən, Azərbaycanda dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilmişdir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- məhkəmə hakimiyyəti Azərbaycan Respublikasının məhkəmələri tərəfindən həyata keçirilir.

Nəzərə alınması vacibdir ki, Konstitusiyamızın 7-ci maddəsinin 4-cü hissəsinə əsasən bu hakimiyyət növləri bir-biri ilə qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

Göstərilənləri nəzərə alaraq qeyd etmək istərdik ki, "İdarəetmənin, dövlət idarəetməsinin və icra hakimiyyətinin anlayışı, məzmunu və prinsipləri" adlı mövzunun mahiyyətcə, plana daxil edilmiş suallarının açıqlanması vasitəsi ilə idarəetmə, dövlət idarəetməsi, icra hakimiyyəti haqqında anlayış, onların elementləri, xüsusiyyətləri və prinsipləri barəsində biliklərin sizlər tərəfindin mənimsənilməsinə xidmət edir.

Mühazirənin 1-ci sualında idarəetmənin anlayışı, xüsusiyyətləri, ünsürləri və funksiyaları təhlil olunacaqdır.

Mühazirənin 2-ci sualında dövlət idarəetməsinin anlayışı, subyektləri, əlamətləri, prinsipləri və funksiyalarının açıqlanması nəzərdə tutulmuşdur.

Mühazirənin 3-cü sualında icra hakimiyyətinin anlayışı, xüsusiyyətləri və məqsədi barədə müddəalar şərh ediləcəkdir.

Mühazirədə diqqətinizə təqdim olunan məlumatlar hesabına və növbəti mövzular üzrə öyrənəcəyiniz hüquqi biliklər dövlət idarəetməsində həm nəzəri, həm də təcrübi cəhətdən xüsusi əhəmiyyətə malikdir. Belə ki, müasir dövrdə dövlət-vətəndaş münasibətlərinin qurulması məmur korpusunun peşəkarlığı ilə yanaşı həmçinin xüsusi biliklərin tətbiq etmə bacarığının olmasını şərtləndirir.

**Sual 1.** İdarəetmənin anlayışı, elementləri və funksiyaları

Azərbaycan Respublikasının hüquq sistemi nizamasalma predmeti baxımından bir-birindən fərqlənən hüquq sahələrindən ibarətdir. Hər bir hüquq sahəsinin nizamasalma predmetini cəmiyyətin həyat fəaliyyətinin bu və ya digər sahəsində yaranan ictimai münasibətlər təşkil edir.

Azərbaycan Respublikasının hüquq sisteminə daxil olan hüquq sahələrindən biri də "İnzibati hüquq" sahəsidir. "İnzibati hüquq"un nizamasalma predmetini əsasən dövlət idarəetməsi, icra hakimiyyətinin təşkili və həyata keçirilməsi prosesində yaranan ictimai münasibətlər təşkil edir.

Nəzəri baxımdan "İnzibati hüquq"un öyrənilməsində onun formalaşmasının metodoloji əsaslarının müəyyən olunması zəruridir. Bu geniş yayılmış və sosial təzahür olaraq obyektiv aləmlə bağlı olan idarəetmədir.

İdarəetmə latın mənşəli "administratio" sözünün mənası olan müəyyən fəaliyyət növünü xarakterizə edən universal vasitə deməkdir. O ictimai əhəmiyyət kəsb edən məqsədlərə nail olmaq üçün həyata keçirilən hərəkətlər məcmusudur.

Dünya açıq ensiklopediyasında qeyd edilir ki, idarəetmə məzmunca təşkiletmənin formalaşması və məqsədlərinə nail olmaq üçün həyata keçirilən planlaşdırma, motivasiya və nəzarətdir. İdarəetmə geniş mənada nəyinsə (və ya kiminsə) üzərində rəhbərliyin həyata keçirilməsi deməkdir. İdarəetmənin ümumi məzmununun əlamətlərinə aiddir:

- idarəetmə - öz bütövlüyünü təmin edən ayrı-ayrı təbiətli (bioloji, texniki, sosial) təşkil edilmiş sistemlərin funksiyası olub, qarşısında duran vəzifələrə nail olmaq, öz strukturunu saxlamaq, eləcə də fəaliyyətində müvafiq rejimin saxlanmasını təmin edən funksiyadır;
- idarəetmə - öz vəzifələri ilə bu və ya digər elementlərin sistemini təşkil edən qarşılıqlı əlaqələrin marağına xidmət edir;
- idarəetmə - vahid bir sistemin daxili keyfiyyəti olub, özünü-təşkiletmə (özünü idarəetmə) əsaslarında daim qarşılıqlı əlaqədə olan subyekt (idarəedən) və obyekt (idarə olunan) kimi əsas elementlərin vəhdətindən ibarətdir;
- idarəetmə - elementlərin sistemini təşkil edən daxili qarşılıqlı əlaqələri nəzərdə tutmaqla yanaşı, həmçinin müxtəlif iyerarxiya səviyyəli qarşılıqlı əlaqədə olan bütöv (tam, vahid) sistemlərin həm sistemdaxili, həm də sistemlərarası idarəetmə funksiyalarının həyata keçirilməsini nəzərdə tutur. Sistemlərarası idarəetmədə yuxarı təbəqəli sistem idarəetmənin subyekti, aşağı təbəqəli sistem isə idarəetmənin obyekti hesab olunur;
- idarəetmə - mahiyyətcə subyektin obyektə idarəetmə təsiri göstərməsindən ibarət olub, məzmunca sistemin qaydaya salınmasından, onun mövcudluğunun və inkişafının (fəaliyyətinin) təmin edilməsindən ibarətdir. Daha dəqiq desək, sistemin fəaliyyəti üçün idarəetmənin subyekti məqsədyönlü nizamasalma təsirlərini həyata keçirir;
- idarəetmə - sistemin idarəolunan elementinin idarəedən elementə faktiki tabeçiliyi vizual xarakter daşıdıqda real sayılır. Burada idarəçilik (nizama salma) təsiri – idarəetmə subyektinin müstəsna hüququ kimi müəyyən olunur.

Sosial idarəetmə ictimai həyatın atributu kimi geniş mənada, istənilən cəmiyyətə xas olan özünütənzimləmə, özünüqoruma və özünü təşkilatlandırma sistemidir. O yalnız şüurlu deyil, həmçinin kortəbii şəkildə həyata keçirilir.

Sosial idarəetmə dedikdə, cəmiyyətdə yaranan ictimai əlaqələrin təşkili mexanizmi başa düşülür.

Sosial idarəetmə qısa mənada insanların subyektiv, şüurlu, məqsədyönlü fəaliyyətidir. O, cəmiyyətin qorunub saxlanmasına, həmçinin qanunauyğunluqlar nəzərə alınmaqla inkişafa təminat verir.

Sosial idarəetmənin zəruriliyi ictimai xarakter daşıyır və əmək bölgüsü ilə şərtləndirilir. Qeyd olunan zərurət ümumi məqsədə nail olmaq üçün əmək fəaliyyəti iştirakçılarının qüvvələrinin uzlaşdırılması vacibliyindən yaranır.

Sosial idarəetmə aşağıdakı əlamətlərlə xarakterizə olunur:

a) sosial idarəetmə - yalnız insanların birgə fəaliyyəti olduqda mövcud olur;

b) sosial idarəetmə - təyinatı baxımından birgə fəaliyyət prosesində iştirakçıların qarşılıqlı əlaqələrinə təşkilatçılıq (təşkil etmə) xarakteri verməklə, həmçinin onların əlaqələrinə nizamasalma təsiri göstərir;

c) sosial idarəetmə - birgə fəaliyyət zamanı iştirakçıların davranışlarının (hərəkətlərinin), onların qarşılıqlı münasibətlərinin başlıca təsiretmə obyektidir;

ç) sosial idarəetmə - insanların davranışlarının nizamlayıcısı rolunda çıxış edərək, öz məqsədinə idarəetmə münasibətlərindən ibarət olan ictimai əlaqələr çərçivəsində nail olur. Qeyd olunan bu əlaqələr sosial idarəetmə funksiyalarının təcrübi realizəsi zamanı subyekt ilə obyekt arasında yaranır;

d) sosial idarəetmə - idarəetmə münasibətlərində iştirakçı olan insan iradəsinin müəyyən tabeçiliyinə əsaslanır. Həmin münasibətlər şüurlu - iradəvi vasitəçilik xarakteri daşıyır;

e) sosial idarəetmə - realizə baxımından xüsusi mexanizmlə gerçəkləşir. Bu mexanizmə idarəetmə subyektləri aid edilir.

Sosial fəaliyyətin istənilən sahəsində iştirakçıların birgə fəaliyyəti üçün məqsədyönlü idarəetməyə ehtiyac duyulur. Sosial mənada başa düşülən idarəetmə çox növlüdür. Bu idarəetməyə aşağıdakıları aid etmək olar:

- dövlət idarəetməsi;
- qeyri-dövlət idarəetməsi;
- ictimai idarəetmə;
- yerli özünüidarəetmə (bələdiyyələr).

İdarəetmənin məzmununu daha dərindən dərk etmək üçün onun elementlərini açıqlamaq daha məqsədəuyğundur. İdarəetmənin elementlərinə aiddir:

- idarəetmənin subyekti;
- idarəetmənin obyekti;
- idarəetmənin düzünə (birbaşa) və əksinə olan əlaqələri;
- idarəetmənin sistemi;
- idarəetmənin funksiyaları.

İdarəetmə metodlarından istifadə edərək birgə fəaliyyət iştirakçılarına təsir edən komponent idarəetmənin subyekti adlanır. İdarəetmə subyekti idarəetmə prosesində birgə fəaliyyət iştirakçılarının iradə və davranışlarını öz iradəsinə tabe etməklə qarşısına qoyulmuş vəzifələrin yerinə yetirilməsinə nail olur.

İdarəetmənin obyekti öz iradə və davranışını idarəetmənin subyektinin iradəsinə uyğunlaşdıran birgə fəaliyyət iştirakçısıdır.

İdarəetmə təsirləri idarəetmə obyektlərinə düzünə (birbaşa) əlaqə kanalları vasitəsilə daxil olur. Onların qəbul edilməsi və icra edilməsi haqqında məlumat isə, əks əlaqə kanalları vasitəsi ilə idarəetmənin subyektinə çatdırılır.

İdarəetmənin subyektləri və obyektləri arasında əlaqə kanallarının məcmusu idarəetmə sistemini təşkil edir. O, idarəetmənin subyektinə və obyektinə xas olan əlamətləri özündə əks etdirir.

İyerarxiya baxımından istənilən bir sistem başqa bir yüksək sistem tərəfindən öz məqsədlərinə nail olmaq naminə yaradılır. Sistemin fəaliyyət məqsədləri onun vəzifələrində, (idarəetmə sisteminin əsas funksiyalarında) maddiləşməklə icra üçün yaradılmış sistemin özündə konkretləşdirilir.

Sistemin bütün funksiyalarının uzlaşdırılması və reallaşdırılması həmçinin özünüqoruma və inkişafı naminə yeni sahələrarası ümumi rəhbərlik (qərargah) funksiyası meydana çıxır. Sadalanmış funksiyaların realizəsi kadr, maliyyə, maddi-texniki və digər təminatların, həyata keçirilməsini tələb edir. Beləliklə, idarəetmənin xüsusi, təminedici və ümumi funksiyaları mövcuddur.

İdarəetmənin xüsusi funksiyaları idarəetmə prosesinin məqsədyönlülüyü və onun qarşısında duran vəzifələrlə sıx bağlıdır. Məsələn: fövqəladə vəziyyət (təbii fəlakət) zamanı idarəetmənin aşağıdakı xüsusi funksiyalarının həyata keçirilməsinə ehtiyac duyulur və onların yerinə yetirilməsi tələb olunur:

a) təbii fəlakət baş vermiş ərazidən əhalinin təxliyə edilməsi;

b) təbii fəlakət baş verən zaman əhaliyə tibbi, maddi və mənəvi yardımın göstərilməsi;

c) təbii fəlakətin vurduğu ziyanların aradan qaldırılması və s.

İdarəetmənin təminedici funksiyaları idarəetmənin xüsusi funksiyaları ilə sıx bağlı olub, idarəetmə prosesinin məqsədinə nail olmaq və qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün həyata keçirilən maddi-texniki əməliyyatların məcmusundan ibarətdir. Məsələn: yuxarıda göstərilən misalda təbii fəlakət baş verən zaman aşağıdakı təminedici funksiyalar həyata keçirilir:

a) həmin əraziyə müxtəlif tikinti materiallarının, texnikanın və digər zəruri predmetlərin göndərilməsi;

b) həmin ərazidə səyyar hospitalların yaradılması;

c) əhaliyə ərzaq, geyim və digər məmulatların paylanması.

İdarəetmənin ümumi funksiyaları hər bir idarəetmə prosesinə şamil edilən fəaliyyət istiqamətləridir.

İdarəetmənin ümumi funksiyalarına aiddir:

- planlaşdırma;
- proqnozlaşdırma;
- dəqiqləşdirilmiş (doğru) məlumat;
- təşkiletmə;
- nizamlama və operativ sərəncam vermə;
- koordinasiya (əlaqələndirmə);
- nəzarət;
- yoxlama;
- qeydiyyat-uçot və s.

a) planlaşdırma funksiyası - bu və ya digər fəaliyyətin, proseslərin (iqtisadi, mədəni, müdafiə və s.) inkişafının dəqiq kəmiyyət və keyfiyyət göstəricilərinin, istiqamətlərinin, vəzifə və nəticələrinin, məqsədinin, sürətinin (tempinin) və s. əvvəlcədən müəyyən edilməsidir;

b) proqnozlaşdırma funksiyası - elmi nailiyyətlər və alınmış məlumatlar əsasında istənilən hadisə və ya proseslərin inkişafında baş verə biləcək dəyişikliklərin qabaqcadan görülməsidir. Proqnozlaşdırması olmadan nə cəmiyyətin gələcək vəziyyətini bütövlükdə, nə də hər hansı bir regionun, ayrı-ayrı sosial proseslərin gələcək vəziyyətini müəyyən etmək qeyri-mümkündür;

c) dəqiqləşdirilmiş (doğru) məlumat funksiyası - ictimai münasibətlərin sosial qarşılıqlı əlaqələrinin nizama salınması üçün cəmiyyətdə törəyən, yaranan və sənədləşdirilən biliklərin, məlumatların və xəbərlərin məcmusudur;

ç) təşkil etmə funksiyası idarəetmənin vahid (tam) sisteminin əsas hissəsini təşkil edən idarəedən və idarəolunan sistemaltıların təşkil edilməsidir. Təşkil etmə - nəyəsə düzgün görünüş vermək, hissələrin quruluşunun qarşılıqlı yerləşməsini, onların qarşılıqlı əlaqəsini və hər bir hissəsinin funksiyasını müəyyən etməklə nizamasalınmasıdır.

Adı çəkilən funksiyaya misal olaraq idarə, müəssisə, təşkilat və orqanların yaranmasını, ləğv edilməsini, birləşməsini və ayrılmasını, onların tabeçilik funksiyalarının, hüquq və vəzifələrinin, qarşılıqlı əlaqə qaydalarının, struktur və ştatlarının müəyyən edilməsini, eləcə də onların maddi və pul vəsaitləri ilə təmin edilməsini, kadrların seçilməsini və yerləşdirilməsini və s. göstərmək olar;

d) nizamlama və operativ sərəncam vermə funksiyası - idarəetmənin müəyyən bir fəaliyyət rejiminin, bu və ya digər hərəkətlərin həyata keçirilmə qaydasının (onların məzmununa birbaşa təsir göstərməmək şərti ilə) müəyyən edilməsindən və ya onlara dolayı yollarla təsir göstərməkdən ibarətdir. Operativ sərəncam vermə dedikdə, idarəedilən obyektlərin fəaliyyətinə operativ təsir edən cari göstərişlərin verilməsi başa düşülür;

e) razılaşdırılma funksiyası - ümumi məqsədə nail olmaq məqsədi ilə ayrı-ayrı idarə, müəssisə, təşkilat və orqanların fəaliyyətinin əlaqələndirilməsidir;

ə) yoxlama (nəzarət) funksiyası - idarəetmənin faktiki vəziyyətinin əvvəlcədən müəyyənləşdirilmiş vəziyyətə uyğun olub-olmamağının müəyyən edilməsindən ibarətdir. Həmin funksiya vasitəsilə idarəolunan obyektin əvvəlcədən müəyyən edilmiş fəaliyyət istiqamətlərindən yayınması, bu barədə mübahisələrin aşkar olunması, onların aradan qaldırılması, belə yayınmalarda (təqsiri) olanların məsuliyyətə cəlb olunması zərurət yaranarsa, bu vəziyyətə gətirib çıxaran amillər dəqiqləşdirilir və onlara düzəlişlər edilir.

f) qeydiyyat (uçot) funksiyası - nəzarət funksiyası ilə sıx bağlı olub, vəsaitlərin (insan, maddi, pul və s.) mövcudluğu və sərf olunmaları, qərarların yerinə yetirilməsi üzrə fəaliyyətin nəticələri, sənədlərin mövcudluğu və hərəkəti haqqında məlumatların say formasında işlənilməsi və müvafiq qaydada qeyd olunmasından ibarətdir. Qeydiyyat (uçot) funksiyası idarəetmə prosesində istifadə olunan ümumi funksiyalardan ən geniş yayılmışdır.

İdarəetmə sistemi idarəetmənin subyektləri və obyektlərini, onlar arasında əlaqə kanallarının məcmusunu, eləcə də idarəetmənin subyektlərinə və obyektlərinə xas olan əlamətləri özündə əks etdirir.

İdarəetmə prosesi sonsuz bir prosesdir. O, bir-birini tamamlayan və ardıcıl olaraq dəyişən aşağıdakı mərhələlərdən ibarətdir:

- həll edilən problemin araşdırılması və onun təhlili;
- qərar layihəsinin hazırlanması;
- layihənin müzakirəsi və ona ekspert qiymətinin verilməsi;
- aidiyyəti olan orqan və təşkilatlarla razılaşdırılması;
- qərar layihəsinin təsdiqi (ona mütləq hüquqi qüvvənin verilməsi);
- qərarın icraçılara çatdırılması;
- qərarın yerinə yetirilməsi;
- qərarın yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsi.

Təhlil olunan funksiyaların uzlaşdırılması ilə idarəetmə prosesi formalaşır. İdarəetmə prosesinin müvafiq əvəz olunmaları ilə idarəetmə silsiləsi təşkil edilir.

***Birinci sualı yekunlaşdıraraq qeyd etmək istərdik ki:***

1. İdarəetmə müəyyən fəaliyyət növünü xarakterizə edən universal vasitə olub, ictimai əhəmiyyət kəsb edən məqsədlərə nail olmaq üçün həyata keçirilən hərəkətlər məcmusudur.

2. Sosial idarəetmənin aşağıdakı növləri mövcuddur:
- dövlət idarəetməsi;
- qeyri-dövlət idarəetməsi;

3. İdarəetmənin elementləri aşağıdakılardır:
- idarəetmənin subyekti;
- idarəetmənin obyekti;
- idarəetmənin düzünə (birbaşa) və əksinə olan əlaqələri;
- idarəetmənin sistemi;
- idarəetmənin funksiyaları.

4. İdarəetmənin  xüsusi, təminedici və ümumi funksiyaları fərqləndirilir.

5. İdarəetmə prosesinin mərhələlərinə aiddir:
- həll edilən problemin araşdırılması və onun təhlili;
- qərar layihəsinin hazırlanması;
- layihənin müzakirəsi və ona ekspert qiymətinin verilməsi;
- aidiyyəti olan orqan və təşkilatlarla razılaşdırılması;
- qərar layihəsinin təsdiqi;
- qərarın icraçılara çatdırılması;
- qərarın icrası;
- qərarın icrasına nəzarətin həyata keçirilməsi.

**Sual 2.** Dövlət idarəetməsinin anlayışı, subyektləri və prinsipləri

Dövlət idarəetməsi sosial idarəetmənin bir növü olub, xüsusiyyətləri baxımından idarəetmənin digər növlərindən fərqlənir. Sosial idarəetmənin digər növlərindən fərqli olaraq dövlət idarəetməsinə daha çox rast gəlinir.Hüquq ədəbiyyatlarında və bir çox ölkələrin qanunvericiliklərində dövlət idarəetməsi məfhumundan geniş istifadə olunur. Azərbaycan Sovetlər İttifaqı tərkibinə daxil olduğu müddətdə adı çəkilən məfhumdan geniş istifadə olunurdu. 12 noyabr 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının məzmununda bu məfhumdan istifadə edilməyib. Təhlil edilən normativ hüquqi aktda "icra hakimiyyəti" məfhumu normativ məzmun almışdır. Həmin anlayışın Konstitusiyada təsbit olunması dövlət idarəetməsinin bir proses və ya fəaliyyət forması kimi ləğvindən xəbər vermir, sadəcə ictimai-siyasi quruluşun mahiyyətindən irəli gələrək, məfhumların əvəz edilməsi kimi (xüsusən də icra hakimiyyəti adlandırılan hakimiyyətin məqsədləri ilə) izah oluna bilər. Qeyd olunan məsələnin normativ müstəvidə müzakirəsindən aydın olur ki, hər şey Konstitusiya ilə elan olunmuş hakimiyyətlərin bölünməsi prinsipi ilə müəyyən olunur. Konstitusiyanın 7-ci maddəsinin 3-cü bəndinə əsasən, Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirirlər.

Dövlət idarəetməsi dövlət hakimiyyət səlahiyyətlərinin həyata keçirilməsi forması kimi, dövlət orqanlarının fəaliyyət növlərindən biridir. Dövlət idarəetməsini həyata keçirən dövlət orqanlarının (idarəetmə, rəhbərlik) səlahiyyət həcmi müxtəlifdir.

Dövlət hakimiyyətinin mahiyyəti və strukturu hüquqi cəhətdən Azərbaycan Respublikası Konstitusiyasında və konstitusiya qanunlarında öz əksini tapmışdır. Dövlət hakimiyyəti qanunvericiliyə, dövlət aparatına, maddi ehtiyatlara, pul vəsaitlərinə və digər əhəmiyyət kəsb edən təzahürlərdən istifadə kimi mexanizmə arxalanır.

Qeyd olunduğu kimi, Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin 3-cü bəndinə əsasən, Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilmişdir. Konstitusiyanın göstərilən müddəasına əsasən, hakimiyyət qolları olan qanunverici, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər. Hər bir orqan öz funksiyasının həyata keçirilməsi üzrə ona təhkim edilmiş iş hissəsini (vəzifəsini) yerinə yetirir.

Azərbaycan Respublikasında dövlət hakimiyyətini Milli Məclis, Prezident, Nazirlər Kabineti, mərkəzi icra hakimiyyəti orqanları və məhkəmələr həyata keçirirlər. Azərbaycan Respublikası Konstitusiyasının dördüncü bölməsinin IX fəsli "Yerli özünüidarəetmə" adlanır. Həmin fəslin 142-ci maddəsinə görə yerli özünüidarəni bələdiyyələr həyata keçirir. Göründüyü kimi, yerli özünüidarə orqanları (bələdiyyələr) dövlət hakimiyyəti orqanları sisteminə daxil edilməmişdir.

Qanunverici hakimiyyətin funksiyası qanunların hazırlanmasından və qəbul edilməsindən ibarətdir. Qeyd edilməsi zəruridir ki, Azərbaycan Respublikasında qanunverici hakimiyyəti Milli Məclis həyata keçirir.

Azərbaycan Respublikasının Milli Məclisi 125 deputatdan ibarətdir. Azərbaycan Respublikası Milli Məclisinin deputatları majoritar seçki sistemi, ümumi, bərabər və

birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər. Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının səlahiyyət müddəti 5 ildir. Müharibə şəraitində hərbi əməliyyatların aparılması Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsini mümkün etmədikdə Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır. Bu barədə qərar seçkilərin (referendumun) keçirilməsini təmin edən dövlət orqanının müraciətinə əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən qəbul edilir. Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının seçkiləri hər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir.

Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının səlahiyyət müddəti Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti ilə məhdudlaşır. Azərbaycan Respublikası Milli Məclisinin deputatlığından çıxanların yerinə yeni seçkilər keçirilərsə, yeni seçilən deputatın səlahiyyət müddəti deputatlıqdan çıxanın qalan səlahiyyət müddəti ilə məhdudlaşır.

Nəzərə alınması zəruridir ki, Naxçıvan Muxtar Respublikasında qanunvericilik hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həyata keçirir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 45 deputatdan ibarətdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səs vermə yolu ilə seçilirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər çağırışının səlahiyyət müddəti 5 ildir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər çağırışının seçkiləri hər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının səlahiyyət müddəti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin çağırışının səlahiyyət müddəti ilə məhdudlaşır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığından çıxanların yerinə yeni seçkilər keçirilərsə, yeni seçilən deputatın səlahiyyət müddəti deputatlıqdan çıxanın qalan səlahiyyət müddəti ilə məhdudlaşır.

İcra hakimiyyəti təşkilati - idarəetmə, icraedici - sərəncamverici xarakterli funksiyaları həyata keçirir. Adı çəkilən hakimiyyət praktiki olaraq xüsusi dövlət orqanları - icra hakimiyyəti orqanları tərəfindən yerinə yetirilir. Dövlət aparatının gündəlik fəaliyyət göstərməsini təmin etmək məqsədi və qanunların icrası üçün icra hakimiyyəti orqanları qanun əsasında fəaliyyət göstərirlər.

Məhkəmə orqanları Azərbaycan Respublikası Konstitusiyasının 130-132-ci maddələri və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, konstitusiya, cinayət, mülki və inzibati-iqtisadi mühakimə icraatı formasında işlərə baxırlar. Bundan əlavə, icra hakimiyyəti orqanlarının, onların vəzifəli şəxslərinin və hakimiyyət nümayəndələrinin fəaliyyətlərində qanunçuluğa riayət etmələrinə nəzarətin həyata keçirilməsi kimi vəzifələr də məhkəmə hakimiyyəti orqanlarının üzərinə qoyulmuşdur.

İcra hakimiyyətinin həyata keçirilməsi səlahiyyətləri Nazirlər Kabinetinə, mərkəzi icra hakimiyyəti orqanları olan nazirliklərə, dövlət komitələrinə, müstəqil xidmətlərə və digər icra hakimiyyəti orqanlarına, həmçinin onların ərazi orqanlarına və bir sıra vəzifəli şəxslərə həvalə edilmişdir.

Sadalanan orqanların təsərrüfat, sosial-mədəni və inzibati-siyasi quruculuqlarına rəhbərlik üzrə fəaliyyəti əvvəllər dövlət idarəetməsi adlanırdı. Qeyd olunduğu kimi, 12 noyabr 1995-ci il tarixində qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasında "dövlət idarəetməsi" anlayışı "icra hakimiyyəti" ilə əvəzləndi. Bununla yanaşı, sahəvi qanunvericilik aktlarında "hakimiyyət orqanları" məfhumu "dövlət idarəetməsini həyata

keçirən orqanlar" ilə əvəz olundu. Adı çəkilən hər iki anlayış bir-birinə çox yaxındır. Lakin qeyd etmək lazımdır ki, icra hakimiyyəti dövlət idarəetməsi formasında həyata keçirilir. Nəticə etibarilə demək olar ki, "dövlət idarəetməsi" anlayışı "icra hakimiyyəti"ndən geniş məzmuna malikdir. Bəzən, dövlət idarəetmə funksiyaları, digər dövlət hakimiyyət orqanları olan Milli Məclis və məhkəmə orqanları tərəfindən həyata keçirilir. Məsələn: məhkəmə orqanları ədalət mühakiməsi ilə yanaşı, icra hakimiyyəti orqanları aktlarının qanunlara uyğun olub-olmamağına nəzarət funksiyasını, eləcə də məhkəmə aparatının fəaliyyətinin təşkili və buna rəhbərliyin həyata keçirilməsi formasında daxili idarəetmə funksiyasını həyata keçirir.

Azərbaycan Respublikası Konstitusiyasının 8-ci maddəsinə əsasən, Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, dövlət hakimiyyətinin bütün qollarının və onların müvafiq strukturlarının fəaliyyətini razılaşdırır və əlaqələndirir. Qeyd edilən maddənin 4-cü bəndinə əsasən, Azərbaycan Respublikasının Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır. O, geniş səlahiyyətlərə malik olub, icra hakimiyyəti orqanlarının təşkil edilməsi və fəaliyyətlərinə fəal təsir göstərir.

Dövlətin məqsəd, funksiya və vəzifələrinin realizəsinə istiqamətləndirilmiş icra hakimiyyəti orqanlarının fəaliyyətləri birinci növbədə Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktlarında normativ məzmun almışdır (təsbit olunmuşdur).

Məlum olduğu kimi, dövlət idarəetməsi prosesində qanunverici orqan təcrübi cəhətdən qanunları hazırlayır və qəbul edir. İcra hakimiyyəti orqanları isə qanunları icra edir. İcra hakimiyyəti orqanları öz səlahiyyətləri çərçivəsində və qanun əsasında fərdi və normativ xarakterli aktlar (hüquq tətbiqetmə aktları) qəbul etmək hüququna malikdirlər. Həmin aktlar qanunlara əsaslanmalı, onlara müvafiq olmalı, onları dəqiqləşdirməli və inkişaf etdirməlidir. İcra hakimiyyəti orqanlarının qəbul etdikləri qanunqüvvəli aktlar və onların realizəsi sərəncam vermə xarakterinə malikdir. Nəzərə alınması zəruridir ki, buradakı sərəncam vermə sənəd kimi deyil, müəyyən vəzifənin həyata keçirilməsi üçün tapşırıqların (göstərişlərin) həvalə olunmasıdır.

Söylənilən fikirlərdən aydın olur ki, dövlət idarəetməsi - dövlət fəaliyyət formalarından biri olub, dövlətin vəzifə və funksiyalarının həyata keçirilməsidir. Dövlət idarəetməsi dövlət idarəetmə orqanlarının icraedici-sərəncamverici fəaliyyətlərində özünü büruzə verir.

Dövlət idarəetməsinin mahiyyəti qanunların və qanunqüvvəli aktların icrasının həyata keçirilməsindən, dövlət quruculuğunun və müdafiəsinin möhkəmləndirilməsindən, insan və vətəndaş hüquq və azadlıqlarının tam həcmdə təmin edilməsindən və inkişaf etdirilməsindən ibarətdir. O dövlət orqanlarının ikitərəfli fəaliyyətindən (icraedici - sərəncamverici) ibarətdir.

İcraedici fəaliyyət - sərəncam vermə, icranın təşkili və icranın yoxlanılması formaları kimi ümumi müddəaların konkret məsələlərə bilavasitə tətbiqi yolu ilə həyata keçirilməsindən ibarətdir.

Sərəncam vermə fəaliyyəti - vəzifələrin icrası ilə əlaqədar qanuna əsaslanan hüquq normalarının müəyyən edilməsi yolu ilə həyata keçirilən fəaliyyətdir. Həmin hüquq normaları dövlət idarəetmə orqanlarının səlahiyyətləri çərçivəsində müəyyən edilir. Onların məqsədi qanunla müəyyən olunmuş norma və prinsiplərin dəqiqləşdirilməsi və konkretləşdirilməsidir.

Normativ hüquqi akt olan qanun dövlət idarəetməsini həyata keçirən müxtəlif orqanlar üçün müxtəlif həcmdə icraedici-sərəncamverici səlahiyyətlər verir. Dövlət

idarəetmə orqanının hüquqi vəziyyətindən asılı olaraq onların icraedici-sərəncamverici səlahiyyətləri müəyyən edilir. Bir qayda olaraq, dövlət idarəetmə orqanlarının sərəncam vermə səlahiyyətləri onların məxsus olduğu təbəqə ilə müəyyənləşdirilir. Daha dəqiq desək, nisbətən yuxarı təbəqəli dövlət idarəetmə orqanlarının sərəncam vermə səlahiyyətləri həcmcə daha geniş olur.

Dövlət idarəetmə orqanları müvafiq səlahiyyətləri çərçivəsində hakimiyyət xarakterli səlahiyyətlərdən istifadə edir və dövlət məcburetmə tədbirlərinin tətbiq edilməsinə sərəncam vermək, eləcə də onları tətbiq etmək hüququna malikdirlər. Həmin orqanlar dövlət idarəetmə aktlarını qəbul edərkən vətəndaşların, tabe orqanların və vəzifəli şəxslərin üzərinə icrası məcburi olan vəzifələr qoymaqla yanaşı, həmçinin adları çəkilən subyektlər üçün aidiyyəti hüquq və vəzifələrin (səlahiyyət) dairəsini müəyyən edirlər.

Dövlət idarəetməsinin subyektləri sırasına aid edilən orqanlara aiddir:

- qanunverici hakimiyyət orqanı (əsasən, daxili təşkilati işləri həyata keçirərkən MM-in aparatı);
- məhkəmə hakimiyyəti orqanları (əsasən, daxili təşkilati məsələlərin həlli zamanı);
- icra hakimiyyəti orqanları (idarəetmənin əsas subyektləri).

Yerli özünüidarə orqanları olan bələdiyyələrə ayrı-ayrı vəzifələrin icrası üçün dövlət idarəetmə subyekti statusu verilə bilər. Nəzərə alınması zəruridir ki, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının 2 iyul 1999-cu il tarixli Qanununun 14-cü maddəsinə uyğun olaraq, bələdiyyələr və onların orqanları dövlət hakimiyyəti orqanları sisteminə daxil deyildir. Dövlət orqanları və dövlətin vəzifəli şəxsləri tərəfindən yerli özünüidarənin həyata keçirilməsinə yol verilmir.

Bəzən təcrübədə bələdiyyələrin icra orqanı ilə icra hakimiyyəti orqanları, əsasən də rayon və şəhərlərdə icra hakimiyyəti başçısının qəsəbə üzrə nümayəndəliyi səhv salınır. Məsələyə tam aydınlıq gətirilməsi məqsədilə "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinə diqqət yetirək. Qanunvericinin mövqeyindən aydın olur ki, bələdiyyənin icra orqanı onun icra aparatıdır. İcra aparatı bələdiyyənin sədrindən və onun "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanunu və bələdiyyənin nizamnaməsi ilə müəyyənləşdirilmiş qaydada formalaşdırdığı struktur bölmələrindən və bələdiyyənin nizamnaməsinə müvafiq surətdə yaradılan digər icra strukturlarından ibarətdir.

Təcrübi baxımdan bələdiyyənin icra aparatı bələdiyyənin, habelə bələdiyyənin daimi və başqa komissiyalarının təşkilati, informasiya, kargüzarlıq, maddi-texniki təminat məsələlərini həyata keçirir, bələdiyyə sədrinin tapşırıqlarını yerinə yetirir, bələdiyyənin qərarlarının icrasını təmin edir.

Bələdiyyənin icra aparatının struktur bölmələrinin rəhbərləri görülmüş işlər barədə bələdiyyə sədrinə və bələdiyyəyə hesabat, daimi və başqa komissiyaların iclaslarında səlahiyyətlərinə aid məsələlər barəsində məlumat verirlər.

Bələdiyyənin icra aparatının fəaliyyətinə bələdiyyənin sədri rəhbərlik edir. Yerli əhaliyə xidmət, iqtisadi və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərlərini bələdiyyə iclasının qərarına əsasən bələdiyyənin sədri təyin edir.

Qanunvericilik və icra hakimiyyəti orqanları bələdiyyələrə əlavə səlahiyyətlər həvalə etdikdə onları bu səlahiyyətlərin həyata keçirilməsi üçün zəruri maliyyə vəsaiti ilə təmin edirlər. Azərbaycan Respublikası icra hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar nəticəsində bələdiyyənin məxarici artıb mədaxili azalarsa, qərar qəbul etmiş orqanlar kompensasiya ödəyirlər. Kompensasiyanın məbləği müvafiq qərarın qəbul

olunması ilə bir vaxtda müəyyənləşdirilir. Bələdiyyələrin əlavə xərclərinə səbəb olan dövlət orqanlarının qərarlarını bələdiyyələr onlara kompensasiya kimi verilmiş vəsait həddində həyata keçirirlər.

Dövlət tərəfindən qeyri-hökumət təşkilatlarına (ictimai birliklər və fondlar) müvafiq səlahiyyətlər verilə bilər.

Qeyd olunduğu kimi, dövlət idarəetməsi sosial idarəetmənin növlərindən biri olaraq, özündə təşkiletmə fəaliyyətini əks etdirir və müəyyən ictimai əhəmiyyət kəsb edən məqsədlərə nail olmaq üçün həyata keçirilir. Sosial idarəetmə kimi, dövlət idarəetməsi də özünün "mütləq" elementlərinə malikdir. Həmin elementlər sırasına idarəetmənin subyekti, obyekti, düzünə və əks əlaqələr, eləcə də sistemin funksiyaları aid edilir.

Dövlət idarəetməsi sosial idarəetmənin digər növlərindən özünəməxsus əlamətlərinə görə fərqlənir. Bu əlamətlərə aid edilə bilər:

- sosial-mədəni və iqtisadi fəaliyyətə bilavasitə operativ rəhbərlik həyata keçirilir;
- dövlət-hakimiyyət xarakterinə malikdir;
- xüsusi səlahiyyətli subyektlər tərəfindən həyata keçirilir (icra hakimiyyəti orqanları);
- nəzarətli həyata keçirilir;
- qanunqüvvəli xarakterə malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Təbii ki, ölkədə dövlət idarəetməsinin düzgün təşkili mühüm əhəmiyyət kəsb edir. Cəmiyyətdə maddi rifahın yüksəldilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi və bütün sahələrdə qanunçuluğun təmin olunması bilavasitə dövlət idarəetməsinin düzgün təşkilindən asılıdır.

I. Dövlət idarəetməsinin ümumi (sosial-hüquqi) prinsipləri. Həmin qrupa aid edilən prinsiplərə aiddir:

- obyektivlik;
- elmilik;
- qanunçuluq və intizam;
- konkretlik (dəqiqlik);
- idarəetmədə vətəndaşların iştirakı;
- effektivlik.

II. Dövlət idarəetməsinin təşkilati prinsipləri. Bu qrupa aşağıdakı prinsiplər daxildir:

- sahəvi;
- xətt;
- ərazi;
- funksional;
- ikili tabeçilik;
- təkbaşçılığın və kollegiallığın uzlaşdırılması;
- səlahiyyətlərin səmərəli bölüşdürülməsi.

Göstərilən prinsiplər Azərbaycan Respublikasının bütün dövlət idarəetmə orqanlarında çalışan vəzifəli şəxslərin gündəlik fəaliyyətində rəhbər tutulur.

Azərbaycan Respublikasında dövlət idarəetməsinin bütün sahələrində elmin və texnikanın nailiyyətlərindən geniş istifadə olunur. Şahidi olduğumuz kimi, XXI əsrin ilk onilliyində sürətlə inkişaf edən və yayılan informasiya və kommunikasiya texnologiyaları, bununla bağlı yeni vüsət almış qloballaşma prosesləri ölkələrin sosial-iqtisadi həyatına ciddi şəkildə təsir etməkdədir.

Qloballaşma şəraitində innovasiya fəaliyyətinin keyfiyyətcə yeni müstəvidə genişlənməsi ilə bütün dünyada iqtisadi və təsərrüfat proseslərinin dəyişmə tempi, innovativ yeniliklərin yayılması, onların istehsal sahəsində tətbiqi misli görünməmiş şəkildə sürətlənir. Bu əslində qloballaşmanın "müsbət yüklü" effektidir və getdikcə daha çox ölkənin innovasiya sahəsindəki nailiyyətlərdən, qabaqcıl texniki standartlardan və idarəetmədə yeni metodlardan yararlanmasına imkan verir. Dövlət idarəetməsi bütövlükdə cəmiyyətin obyektiv qanunauyğunluqlarının dərk edilməsi və istifadə edilməsi əsaslarında təşkil edilir və həyata keçirilir.

Dövlət idarəetməsinin qarşısında duran məqsəd və vəzifələrin yerinə yetirilməsinə nail olmaq üçün dövlət idarəetmə orqanları müxtəlif metodlardan istifadə edirlər.

Dövlət idarəetmə prosesində istifadə olunan metodlar məzmunları baxımından aşağıdakı növlərə bölünür:

- inzibati metodlar - müxtəlif əmrlərin, göstərişlərin, təlimatların və s. tətbiq edilməsi ilə dövlətin məcburetmə təsir tədbirlərinin tətbiq edilməsində ifadə olunur;
- iqtisadi metodlar-dövlət idarəetmə orqanlarının qərarlarının yerinə yetirilməsi üçün maddi marağın yaradılmasından ibarətdir;
- ideoloji metodlar-mənəvi həvəsləndirmənin müxtəlif növləri və s. ilə bağlıdır.

Dövlət idarəetməsinin məqsəd və vəzifələrini tam, vaxtında və effektiv yerinə yetirmək üçün müxtəlif məzmunlu funksiyalar həyata keçirilir.

Dövlət idarəetmə prosesində icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilən əsas fəaliyyət istiqamətlərinə aiddir:

- planlaşdırma - bu və ya digər idarəolunan fəaliyyətin vəzifələrinin, kəmiyyət və keyfiyyət göstəricilərinin, həmçinin məqsədinin istiqamətcə müəyyən edilməsidir;
- proqnozlaşdırma - şəxsi məlumatlar və ya elmi məlumatlar (qabaqcıl elmi nailiyyətlərdən istifadə etməklə) əsasında hər hansı bir hadisə və ya proseslərin inkişafında gedən dəyişikliklərin qabaqcadan görülməsidir;
- idarəedən və idarəolunan sistemaltının təşkili - idarəetmə orqanlarının təşkil edilməsi, onların funksiya-larının, tabeçiliklərinin, hüquq və vəzifələrinin müəyyən edilməsi, kadrların seçilməsi və yerləşdirilməsidir;
- hüquqi nizamasalma - hər hansı bir fəaliyyətin hüquqi rejimlə müəyyən edilməsi və müvafiq strukturların fəaliyyət göstərməsidir;
- yoxlama - qanunların, planların və proqramların yerinə yetirilməsində pozuntuların aşkar edilməsi və aradan qaldırılması üçün faktiki vəziyyətin yoxlanılması və tədbirlərin tətbiq edilməsi, o cümlədən müəyyən edilmiş qaydanı pozanlara qarşı aidiyyəti tədbirlərin tətbiq edilməsidir;
- icraedici - sərəncamverici fəaliyyətin uçotunun aparılması - yekun nəticələrin həyata keçirilməsi üçün əhali, maddi, pul və digər vəsaitlərin (ehtiyatların) hesablanması və müvafiq formada maddiləşmiş qeydiyyatıdır;
- metodiki rəhbərlik - işlərin görülməsi üçün müvafiq normativ və təcrübi göstərişlərin verilməsidir;

Qanunvericiliklə nəzərdə tutulan vəzifələrin realizəsi zamanı icra hakimiyyəti orqanları idarəetmə prosesini həyata keçirirlər. İcra hakimiyyəti orqanlarının idarəetmə prosesi aşağıdakı mərhələlərdən ibarətdir:

- qərarın hazırlanması və qəbul edilməsi;
- qəbul edilmiş qərarın yerinə yetirilməsinin təşkil edilməsi;
- qəbul edilmiş qərarın yerinə yetirilməsinin yoxlanılması və ona nəzarətin həyata keçirilməsi;

• idarəetmə prosesi nəticələrinə yekunun vurulması.

Təhlil olunan funksiyalar dövlət-hakimiyyət orqanları içərisində daha çox icra hakimiyyəti strukturlarına xasdır. Onların ətraflı təhlil edilməsi və təkmilləşdirilməsi isə sosial idarəetmə nəzəriyyəsinin predmetinə daxildir.

***Beləliklə, ikinci sualının açıqlanmasını yekunlaşdıraraq qeyd etmək istərdik ki:***

1. Dövlət idarəetməsi dövlət fəaliyyətinin formalarından biri olaraq, dövlətin vəzifə və funksiyalarının həyata keçirilməsindən ibarətdir. Dövlət idarəetməsi dövlət orqanlarının icraedici-sərəncamverici fəaliyyətlərində özünü biruzə verir.

2. Dövlət idarəetməsinin subyektləri aşağıdakılardır:

a) Dövlət orqanları:

- qanunverici hakimiyyət orqanları (daxili təşkilati işləri həyata keçirərkən);
- məhkəmə hakimiyyəti orqanları (daxili təşkilati məsələlərin həlli zamanı);
- icra hakimiyyəti orqanları (idarəetmənin əsas subyektləri).

b) Yerli özünüidarə orqanları (bələdiyyə orqanları).

3. Dövlət idarəetməsində rəhbər tutulan prinsiplərin məzmunundan asılı olaraq onlar aşağıdakı iki əsas qrupa bölünür:

- dövlət idarəetməsinin ümumi (sosial-hüquqi) prinsipləri:
- dövlət idarəetməsinin təşkilati prinsipləri:

4. Dövlət idarəetmə metodları aşağıdakı növlərə bölünür:

- inzibati metodlar;
- iqtisadi metodlar;
- ideoloji metodlar.

**Sual 3.** İcra hakimiyyətinin anlayışı və məqsədi

Hüquq nəzəriyyəsində qeyd edildiyi kimi, dövlət hakimiyyətinin bütün budaqları qarşılıqlı surətdə fəaliyyət göstərir və vahid dövlət hakimiyyətini təşkil edir. Azərbaycan Respublikasında dövlət hakimiyyətinin müstəqil qolu olan icra hakimiyyəti, müəyyən dövlət orqanlarının və vəzifəli şəxslərin icraedici-sərəncamverici fəaliyyətləri ilə xarakterizə olunur. Dövlət hakimiyyətinin digər budaqlarına münasibətdə icra hakimiyyətini fərqləndirən xüsusiyyətlərə aid edilə bilər:

1. İcra hakimiyyəti - hakimiyyətin bölünməsi prinsipinə əsaslanan dövlət hakimiyyət mexanizminin vacib atributudur. O, həmişə qanunverici və məhkəmə hakimiyyətləri ilə sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

2. İcra hakimiyyəti - hakimiyyət səlahiyyətlərinin istənilən digər təzahürü kimi, başqalarının fəaliyyətinə və davranışına müəyyənedici təsirlər göstərmək bacarığına və imkanına, eləcə də başqalarının iradəsini öz iradəsinə tabe etmək hüququna və imkanına malikdir. Hakimiyyət ümumdövlət miqyasında spesifik xarakterli (səciyyəvi) hüquq tətbiqetmə funksiyaları vasitəsi ilə həyata keçirilir. İcra hakimiyyətinin hüquqi təbiətini açıqlayır. Bununla da kollektivə və ya cəmiyyətə xas olan özünüidarəetmə vasitəsi kimi icraçılıq idarəetmədən fərqləndirilir.

3. İcra hakimiyyəti - dövlət hakimiyyətinin müstəqil budağı olub, dövlət fəaliyyətinin bir növü olan icra fəaliyyəti ilə eyniləşdirilməməlidir. Dövlət fəaliyyətinin bu növü icra hakimiyyətinin realizəsi formasıdır, icra hakimiyyəti isə bu halda icra fəaliyyətinin funksional səlahiyyətlərinin ifadəsindən ibarətdir.

4. İcra hakimiyyəti - dövlət fəaliyyətinin xüsusi növü olub, mahiyyətcə hüquqtətbiqedici fəaliyyətdir. Bu onun prinsipial keyfiyyəti və təyinatıdır.

İcra hakimiyyətinin həyata keçirilməsi prosesində hüquqtətbiqedici fəaliyyət dedikdə, hüquq tətbiqetmənin xüsusi növü başa düşülür. Xüsusilik hüquq tətbiqetmə fəaliyyətinin məhkəmə hakimiyyəti tərəfindən də həyata keçirilməsi ilə izah olunur. Lakin məhkəmə hakimiyyəti ilə icra hakimiyyətinin hüquq tətbiqetmə fəaliyyətləri məzmun və məqsəd baxımından fərqlidirlər. Məhkəmə hakimiyyəti tərəfindən hüquqtətbiqedici fəaliyyət qüvvədə olan qanunvericiliyin pozulması ilə əlaqədar olaraq tətbiq edilirsə, icra hakimiyyəti tərəfindən isə hüquqtətbiqedici fəaliyyət iqtisadiyyat, mədəniyyət, təhsil və s. obyektlərin normal və effektli fəaliyyəti üçün qanunvericiliyin tələblərinin birbaşa icrası prosesində tətbiq edilir.

5. İcra hakimiyyəti - müəyyən subyektiv ifadəyə malikdir. O, icraedici səlahiyyətlərlə təmin edilmiş xüsusi subyektlərin fəaliyyətində özünü büruzə verir. Hakimiyyətlərin bölünməsinin tələblərindən biri də budur. Bu baxımdan icra hakimiyyəti dövlət hakimiyyət mexanizmində icra orqanları ilə təmin olunur. Təbii ki, nə qanunvericilik, nə də məhkəmə orqanları icra hakimiyyəti orqanları sisteminə daxil edilmir.

İcra hakimiyyəti özünün “dinamik” keyfiyyətlərini dövlət orqanlarının vasitəsi ilə əldə edir. Azərbaycan Respublikası Konstitusiyasının 9, 114, 124, 134, 137, 140-141-ci maddələrinə əsasən, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının icra hakimiyyəti orqanları Azərbaycan Respublikasının vahid icra hakimiyyəti sistemini təşkil edir.

6. Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin 1-ci bəndinə əsasən, respublikamızda icra hakimiyyəti unitar quruluş forması əsasında təşkil edilmişdir. İcra hakimiyyəti orqanlarının səlahiyyətləri Konstitusiya və digər qanunvericilik aktları ilə konkret müəyyən edilmişdir. Məsələn: Azərbaycan Respublikası Konstitusiyanın 114-cü maddəsinin 2-ci bəndinə əsasən, Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidenti-

nin yuxarı icra orqanıdır. Daxili İşlər, Ədliyyə, Səhiyyə, Təhsil Nazirlikləri, Dövlət Təhlükəsizlik, Xarici Kəşfiyyat Xidmətləri, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti və s. bu sistemdə mərkəzi icra hakimiyyəti orqanları hesab olunur.

7. İcra hakimiyyəti inzibati hakimiyyətlə eyniləşdirilməməlidir. Belə ki, inzibati hakimiyyət bir qayda olaraq, məhkəmədən kənar səlahiyyətlərin (inzibati məcburetmənin) yerinə yetirilməsi ilə bağlıdır.

İnzibati məcburetmə icra fəaliyyətinin qarşısında duran vəzifələrə nail olmaq üçün istifadə olunan hüquqi vasitələrdən (imkanlardan) biridir. İcra hakimiyyətinin məzmunu zəruri hallarda xəbərdaredici tədbirlərin tətbiq edilməsi ilə bitmir.

Qeyd etmək lazımdır ki, icra hakimiyyəti subyektlərinin malik olduqları “hüquqi hakimiyyət” səlahiyyətlərinin əksəriyyəti hüquqi baxımdan bilavasitə məhkəmədənkənar qaydada həyata keçirilir.

Qanunvericilik hakimiyyəti orqanlarının səlahiyyətləri də bu formada həyata keçirilir. Lakin qanunvericilik hakimiyyətini inzibati hakimiyyəti həyata keçirən subyekt kimi qəbul etmək hüquqi məntiq baxımından yanlış mövqedir.

8. Dövlət hakimiyyətinin vacib atributları icra hakimiyyətinin bilavasitə sərəncamında olması ilə xarakterizə olunur. Məsələn: maliyyə, təhsil, müdafiə, daxili və xarici təhlükəsizlik xidmətləri, polis, penitensiar müəssisələr və s.

İcra hakimiyyəti ilə müqayisədə dövlət idarəetməsi daha geniş anlayışdır. İcra hakimiyyəti məlum mənada dövlət idarəetməsindən törəmişdir. O, dövlət idarəetmə mexanizmində həyata keçirilən hakimiyyət səlahiyyətlərinin xarakter və həcmini müəyyən etmək üçün təşkil edilmişdir.

Dövlət idarəetməsi - icra hakimiyyətinin təcrübi cəhətdən həyata keçirilməsinə Yerli özünüidarəetməninnəldilmiş fəaliyyət növüdür. İcra hakimiyyəti mahiyyətcə, dövlət idarəetməsinin funksional istiqamətini əks etdirən fəaliyyətin məzmununun təşkil edir.

İcra hakimiyyətinin əsas məqsədlərinə aiddir:

- vətəndaşların, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilməsi;
- ölkə iqtisadiyyatının inkişafı, vətəndaşların, cəmiyyətin və dövlətin rifahının yüksəldilməsi üçün şəraitin yaradılması;
- insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi;
- insan və vətəndaşların mənəvi, sosial, iqtisadi və siyasi hüquq və azadlıqlarının realizəsi, idarə, müəssisə və təşkilatların normal fəaliyyəti üçün şəraitin yaradılması.

## Nəticə

Mühazirənin mövzusunun planını təşkil edən sualların açıqlanması vasitəsi ilə əldə etdiyiniz nəzəri biliklərin əhəmiyyəti hər birinizin (dövlət idarəetməsində icra hakimiyyətinin həyata keçirilməsinin bir hissəsi olan - ərazi polis orqanlarında xidmət prosesində) idarəetmənin məqsəd və vəzifələrinin arzuolunan səviyyədə təmin etmək kimi vəzifənin öhdəsindən gəlməyiniz üçün peşəkar zabit kimi formalaşmanıza xidmət edir. Digər tərəfdən isə öz xidməti vəzifələrinizi yerinə yetirən zaman idarəetmənin, dövlət idarəetməsinin və daxili işlər sahəsində idarəetmənin qarşısında duran vəzifələrin yerinə yetirilməsində qanunçuluq və dövlət intizamına ciddi riayət etmiş olacaqsınız.

"Polis haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən polisin əsas vəzifələri, 13-cü maddəsinə əsasən isə polis əməkdaşının ümumi vəzifələri, 14-16-cı maddələrində isə polisin fəaliyyətinin hər bir istiqaməti sahəsində polis əməkdaşının vəzifələri müəyyən edilmişdir.

Polis orqanlarının hər bir əməkdaşı, o cümlədən hər biriniz gələcəkdə ali təhsilli hüquqşünas kimi bu mövzu vasitəsi ilə əldə etdiyiniz anlayışlara və əsas müddəalara riayət etməklə, onların tələblərini yerinə yetirməklə birinci növbədə daxili işlər sahəsində idarəetmənin qarşısında duran vəzifələrin yerinə yetirilməsinə, ikinci növbədə isə polis əməkdaşı kimi xidmət göstərəcəyiniz aidiyyəti sahənin qarşısında duran vəzifələrin günün tələbləri baxımından yerinə yetirilməsinə nail olacaqsınız.

Mühazirəni yekunlaşdıraraq qeyd etmək istərdik ki, mühazirə prosesində əldə etdiyiniz nəzəri bilikləri, ümumi anlayışları, əsas müddəaları dərindən mənimsəməklə və onları təcrübədə düzgün tətbiq etməklə, Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli 1880 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" və 27 dekabr 2011-ci il tarixli 1938 №-li Sərəncam ilə təsdiq edilən "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" ilə nəzərdə tutulan tələb və vəzifələrin müasir tələblər baxımındna həyata keçirilməsinə nail olacaqsınız.